


# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 197 (24.334)

*25 oktyabr 2023-cü il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.gov.az

Qiyməti 30 qəpik


## Azərbaycan Prezidenti İlham Əliyev Türkiyənin milli müdafiə nazirini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 24-də Türkiyə Respublikasının milli müdafiə naziri Yaşar Güləri qəbul edib.

Görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün istiqamətlərdə olduğu kimi hərbi sahədə də uğurla inkişaf etdiyi vurğulandı. Bu baxımdan ölkəmizin müxtəlif yerlərində "Mustafa Kamal Atatürk – 2023" Azərbaycan-Türkiyə birgə taktiki təliminin keçirilməsindən, təlim zamanı yüksək peşəkarlığın və bacarığın nümayiş etdirilməsindən məmnunluq ifadə olundu.

Türkiyə Respublikasının milli müdafiə naziri bu təlimlərin Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyinə təsadüf etməsinin rəmzi məna daşıdığını vurğuladı.

Söhbət zamanı Azərbaycanın və Türkiyənin dövlət başçılarının mütəmadi görüşlərinin və təmaslarının münasibətlərimizin inkişafında rolu qeyd olunaraq bu ilin sentyabrında Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Naxçıvana səfərinin əhəmiyyətinə toxunuldu.

Görüşdə Azərbaycanın ötən ay həyata keçirdiyi antiterror tədbirləri nəticəsində ölkəmizin suverenliyinin tam bərpa olunduğu xüsusi qeyd edildi.

Söhbət zamanı Yaşar Gülərin Azərbaycana səfərinin əlaqələrimizin inkişafına, o cümlədən hərbi sahədə əməkdaşlığın möhkəmləndirilməsi işinə xidmət etdiyi bildirildi, əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

## Prezident İlham Əliyev Azərbaycanda yeni təyin olunmuş səfirlərin etimadnamələrini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 24-də Latviya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Edqars Skuyanın etimadnaməsini qəbul edib.

Səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra dövlətimizin başçısı səfirlə söhbət etdi.

Prezident İlham Əliyev ikitərəfli münasibətlərimizin zəngin tarixə malik olduğunu qeyd edərək qarşılıqlı təmasların, xüsusilə dövlət başçılarının səfərlərinin əməkdaşlığımızın genişlənməsi işinə verdiyi töhfəni vurğuladı.

Dövlətimizin başçısı iqtisadi əlaqələrə toxunaraq ticarət, investisiya və digər sahələrdə daha geniş imkanların müəyyənləşdirilməsinin vacibliyini bildirdi.

Azərbaycan Prezidenti ölkələrimizin müstəqilliyini bərpa etdikdən sonrakı dövrdə bir-birini dəstəkləməsinin önəmini qeyd etdi. Prezident İlham Əliyev, eyni zamanda parlamentlərarası əməkdaşlığın da əlaqələrimizin möhkəmlənməsində roluna toxundu, xalqlar arasında təmasların əhəmiyyətini vurğuladı.

Dövlətimizin başçısı ikitərəfli münasibətlərimizin gələcəkdə də uğurla inkişaf edəcəyinə ümidvar olduğunu bildirdi.

Ölkəmizdə göstərilən yüksək qonaqpərvərliyi qeyd edən səfir Azərbaycanın gözəlliyinin və burada gedən inkişaf proseslərinin onda dərin təəssürat hissi yaratdığını dedi.

Edqars Skuya dövlətimizin başçısına Latviya Prezidentinin ölkəsinə rəsmi səfərlə bağlı dəvətini çatdırdı.

Prezident İlham Əliyev dəvəti minnətdarlıqla qəbul etdi.

Görüşdə Azərbaycan ilə Latviyanın beynəlxalq təşkilatlar çərçivəsində uğurlu əməkdaşlığı qeyd edildi, Latviyanın ölkəmizdəki səfirliyinin NATO-nun Azərbaycanda əlaqələndirici funksiyasını yerinə yetirməsindən məmnunluq ifadə olundu, Azərbaycan ilə NATO arasında əməkdaşlığın inkişafına töhfə verdiyi vurğulandı. Həmçinin Azərbaycanın həm NATO, həm də Avropa İttifaqı ilə əlaqələrinin inkişafında üzv dövlət olaraq Latviyanın verdiyi dəstək yüksək qiymətləndirildi.

* * *



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 24-də İsveçrə Konfederasiyasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Tomas Ştelin etimadnaməsini qəbul edib.

Səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra dövlətimizin başçısı səfirlə söhbət etdi.

Azərbaycan Prezidenti ikitərəfli münasibətlərimizin istər siyasi, istərsə də iqtisadi sahələrdə uğurla inkişaf etdiyini bildirərək özünün Dünya İqtisadi Forumuna səfərləri zamanı İsveçrənin dövlət başçıları ilə mütəmadi görüşlərinin əməkdaşlığın müzakirəsi baxımından önəmini qeyd etdi.

Ticarət, iqtisadiyyat, energetika sahələrində əməkdaşlığın səviyyəsindən məmnunluğunu bildirən Prezident İlham Əliyev İsveçrə şirkətlərinin Azərbaycanda uğurlu fəaliyyətinə toxundu, onların işğaldan azad edilmiş ərazilərimizdə yenidənqurma layihələri ilə bağlı fəal işlədiklərini vurğuladı və bu istiqamətdə yaxşı əməkdaşlığın olduğunu bildirdi.

Dövlətimizin başçısı işğaldan azad edilmiş ərazilərdə insanların rahat yaşaması üçün müasir texnologiya, "yaşıl enerji", ağıllı kənd konsepsiyalarının həyata keçirildiyini deyərək bunların əməkdaşlığımızda yeni istiqamətlər yaratdığını vurğuladı.

Azərbaycan Prezidenti, eyni zamanda SOCAR-ın İsveçrədəki fəaliyyətini, İsveçrə şirkətlərinin Azərbaycan iqtisadiyyatına investisiya qoymasını biznes sahəsində əlaqələrimizin yaxşı göstəricisi kimi dəyərləndirdi.

Prezident İlham Əliyev qarşıdan gələn illərdə əməkdaşlığın daha da genişlənəcəyinə və güclü tərəfdaşlıq əlaqələrinin həyata keçiriləcəyinə ümidvar olduğunu bildirdi.

Səfir, ilk növbədə, Qarabağa səfərinə toxunaraq orada gedən yenidənqurma işləri ilə tanış olduğunu qeyd etdi, İsveçrə şirkətlərini buraya dəvət etmək istəyində olduğunu dedi.

Ümumiyyətlə, Azərbaycan iqtisadiyyatının inkişafında İsveçrə şirkətlərinin fəal iştirak etdiyini bildirən Tomas Ştel bu sahədə əməkdaşlığın genişləndirilməsi üçün yaxşı potensialın olduğunu vurğuladı.

Azərbaycan ilə artıq 20 ilə yaxındır ki, əməkdaşlıq proqramının həyata keçirildiyini bildirən səfir İsveçrə şirkətlərinin Azərbaycanda makroiqtisadi sahədə, eləcə də maliyyə və özəl sektorların inkişafındakı fəaliyyətlərini məmnunluqla qeyd etdi.

**AZƏRTAC**

## Tarix yazan əbədiyaşar lider

*Naxçıvan Şəhər İcra Hakimiyyətində təşkil olunmuş "Tarix yazan əbədiyaşar lider" adlı tədbirdə Ümummilli Liderin və şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.*



Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Mirsənani Seyidov tədbiri giriş sözü ilə açaraq iştirakçıların diqqətinə çatdırıb ki, bu gün Ulu Öndərin fəaliyyətinin, gərgin əməyinin bəhrələrindən təkcə Azərbaycan xalqı yox, bütün region xalqları, türk xalqları, böyük İslam dünyası faydalanır. Elə buna görə də Ümummilli Liderin adı dünyanın hər yerində uca tutulur, xatirəsi ehtiramla anılır.

Naxçıvan Dövlət Universitetinin rektoru, dosent Elbrus İsayev çıxış edərək bildirib ki, ötən dövrə nəzər salsaq, görərik ki, bütün dünyanın diqqətinin Azərbaycanda olduğu bir zamanda, beynəlxalq güclərin Ermənistanın tərəfində olduğu bir dövrdə, qonşu ölkələrlə münasibətlərin normal olmadığı bir vaxtda qarşıdurmanı aradan qaldırmağa, milli birliyi yaratmağa böyük səriştə və siyasi iradə lazım idi ki, bunu məhz Heydər Əliyev bacardı. Bu gün görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycana elə bir varis qoyub gedib ki, O varis bizə hər addımda uğur qazandırır.

Tədbirdə çıxış edən Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədri Elman Cəfərli vurğulayıb ki, xalqımız Heydər Əliyev şəxsiyyətini uca tutur, əbədiyaşar liderin Vətən uğrunda həyata keçirdiyi tarixi missiyaya bu gün bizə qələbə sevinci yaşadan Müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin simasında şahidlik edir.

Sonda sənədli filmə baxış olub.

**Fariz ƏHMƏDOV**

# Xalqın arzularını reallaşdıran LİDER



*Tarix dəfələrlə sübut edib ki, xalqın vahid məqsədlər uğrunda birləşməsi üçün zəruri olan milli birlik böyük siyasi dühaların yaratdığı ideologiyalarda reallaşır. XX əsrdə xalqımızla bağlı bu şərəfli missiyanı Ümummilli Lider Heydər Əliyev həyata keçirmişdir.*

Vətəni və milləti qarşısında misilsiz xidmətləri olan, müstəqilliyimizin müəllifi və müasir dövlətimizin memarı Ulu Öndər Heydər Əliyevin xalq qarşısındakı ən böyük xidmətlərindən biri də Azərbaycanın gələcək taleyində əvəzsiz rolu, milləti və dövləti qarşısında müstəsna xidmətləri olan cənab İlham Əliyev kimi böyük şəxsiyyət və müdrik bir lider yetişdirməsi olmuşdur. Bu ondan irəli gəlirdi ki, Vətənini canından çox sevən uzaqgörən insanı Azərbaycanın təkcə özünün rəhbərlik etdiyi dövr üçün deyil, ondan sonrakı taleyi də düşündürürdü. Ümummilli Lider Heydər Əliyev qurduğu dövlətin taleyini tapşıracağı yeni liderin seçilməsində nümayiş etdirdiyi özünəməxsus müdrikliyin miqyası illər keçdikcə daha aydın görünür, seçimin uğuru təkzibolunmaz şəkildə öz təsdiqini tapır. Onun 2003-cü ilin prezident seçkiləri ərəfəsində prezidentliyə namizəd cənab İlham Əliyev haqqında dediyi ***“Mən İlham Əliyevə özüm qədər inanır və onun gələcəyinə böyük ümidlər bəsləyirəm. Əminəm ki, mənim başa çatdıra bilmədiyim işləri o, başa çatdıracaqdır”*** sözləri uzaqgörənliyin və seçimin alternativsizliyinin bariz nümunəsi sayıla bilər. Hələ 2003-cü ildə dövlət başçısı kimi səlahiyyətlərinin icrasına başlayarkən ***“Mən hər bir azərbaycanlının Prezidenti olacağam”***, – deyən cənab İlham Əliyev cəmiyyətdə mütləq çoxluğun böyük rəğbət və etimad göstərdiyi liderə çevrilmişdir. Ötən illərin reallıqları sülh, sabitlik və tərəqqi yolunun alternativsizliyini sübuta yetirmiş, inam və etimad üzərində qərarlaşan, gələcəyə hesablanan güclü dövlət konsepsiyası ilbəil uğurla gerçəkləşdirilmişdir.

Dövlət başçısı cənab İlham Əliyevin yüksək erudisiyası, mükəmməl siyasi strategiyası, sarsılmaz qətiyyəti, polad iradəsi, yorulmaz fəaliyyəti və xalqla iqtidar arasında olan sıx birliyin sayəsində planetimizin üzləşdiyi çoxsaylı qlobal çətinliklərə, ümumbəşəri ciddi və mürəkkəb problemlərə, həmçinin müharibədən yeni çıxmış ölkə olmağımıza rəğmən, respublikamızda iqtisadiyyat güclənir, bütün sahələrdə mütəmadi olaraq mütərəqqi islahatlar həyata keçirilir, regionların tarazlı inkişafının davamlılığı təmin olunur, hər bir istiqamət üzrə ardıcıl uğurlar əldə edilir ki, nəticədə, dövlətimiz daha da qüdrətlənir və doğma Azərbaycanımız durmadan çiçəklənir.

Azərbaycan dövləti, Azərbaycan xalqı İlham Əliyev cənablarının rəhbərliyi altında gələcəyə, yüksəlişə və inkişafa doğru inamla irəliləyir və hər bir ölkə vətəndaşının fəxr edəcəyi, qürur duyacağı bir məkana çevrilir. Ötən illər aşkar şəkildə göstərdi ki, cənab İlham Əliyev öz fəaliyyət dövrünü bu amalın reallaşmasına həsr etmiş, Ulu Öndərimizin müstəqillik və azadlıq ideyalarını dönmədən həyata keçirmiş, Azərbaycanı sosial-iqtisadi inkişaf, demokratik, hüquqi dövlət quruculuğu və siyasi sabitlik baxımından dünyanın sayılıb-seçilən dövlətlərindən birinə çevirmişdir.

Xalqımız öz liderinin – Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin ətrafında sıx birləşərək müasir Azərbaycan tarixinin ən böyük uğurunu – bütün dünyaya öz gücünü, mətinliyini, mübarizliyini nümayiş etdirdi. Azərbaycan xalqı 20 illik dinamik inkişaf və qalibiyyət tariximiz necə bir mahir, uğurlu sərkərdəyə – Ali Baş Komandana sahib olduğunu aşkar gördü. 44 gün davam edən və işğal altındakı ərazilərimizin azad olunması ilə nəticələnən Vətən müharibəsi tariximizin ən parlaq səhifəsinə, Azərbaycan xalqının iftixar və qürur mənbəyinə çevrildi. Uzaqgörən lider cənab İlham Əliyev həyata keçirdiyi siyasət nəticəsində Azərbaycanı 30 ilə yaxın davam edən münaqişədə qalib tərəfə çevirdi. Ərazi bütövlüyümüzü birmənalı olaraq təsdiq etdi. Prezident cənab İlham Əliyev yalnız hərb meydanında müzəffər sərkərdə kimi deyil, diplomatik cəbhədə də böyük strateq nümunəsi ortaya qoydu, informasiya müharibəsində Azərbaycanın haqq səsi oldu, cəsarətlə bütün təzyiqlərə sinə gərdi, öz xalqı ilə vəhdətdə olan lider kimi mübarizlik rəmzinə çevrildi. Xalqımız öz dövlət başçısının xalqın, dövlətin maraqları naminə böyük qətiyyətini bir daha gördü.

Zamanın gedişini haqqın, ədalətin bərpası istiqamətində dəyişən müdrik lider və yenilməz sərkərdə cənab İlham Əliyev dühasının Azərbaycana qazandırdığı möhtəşəm qələbə xalqa ən dəyərli ərməğan oldu.

Birmənalı olaraq Vətən müharibəsində əldə etdiyimiz qələbə Azərbaycan tarixində, Azərbaycan xalqının yaddaşında əbədi yaşayacaq. Prezident, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqı bu qələbə sayəsində qalib xalq kimi özünü dünyaya bəyan etdi. Ali Baş Komandan Ulu Öndər Heydər Əliyevin vəsiyyətini yerinə yetirərək xalqımıza özünün çoxəsrlik tarixində ən böyük uğuru və xoşbəxtliyi yaşatdı.

Son 20 ilin uğurları, tarixə yazdığı möhtəşəm qələbələri deməyə əsas verir ki, dövlətimizin başçısı qarşıya qoyduğu və bəyan etdiyi strateji hədəflərə nail olmaq üçün istər ölkə daxilində, istərsə də beynəlxalq səviyyədə düşünülmüş və məqsədyönlü siyasət həyata keçirərək Azərbaycanın timsalında “Güclü dövlət” konsepsiyasını reallaşdırmağa nail olmuşdur. Prezident cənab İlham Əliyev Azərbaycan xalqının bütün istək və arzularını həyata keçirən, öz siyasətində dövlətin və xalqın maraqlarını ən ali məqsəd kimi qarşıya qoyan və bütün qüvvəsini bu vəzifələrin reallaşmasına səfərbər edən, milyonların sevgisini qazanan alternativsiz LİDERdir.

Son 20 ildə bütün bu uğurların şahidinə çevrilən Azərbaycan xalqı əldə olunan nailiyyətləri ölkə Prezidenti cənab İlham Əliyevin ümummilli maraqlara söykənən məqsədyönlü siyasətinin məntiqi nəticəsi hesab edir, ölkəmizin gələcəyini bu siyasi kursun ətrafında sıx birləşməkdə görür.

**Arzu ABDULLAYEV**
***Naxçıvan Dövlət Universitetinin prorektoru, tarix üzrə fəlsəfə doktoru***

## Ukraynalı səfir Naxçıvanda səfərdədir





Ukraynanın Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Vladislav Kanevski Naxçıvan Muxtar Respublikasına səfərə gəlib. Səfər çərçivəsində diplomat ilk olaraq Ümummilli Liderin Naxçıvan şəhərindəki abidəsi önünə gül dəstələri qoyub, Heydər Əliyev Muzeyi ilə tanış olub. Muzeydə Ulu Öndər Heydər Əliyevin həyatı və siyasi fəaliyyəti ilə tanış olan səfir muzeyin “Xatirə kitabı”na ürək sözlərini yazıb.



“Şərq qapısı” qəzetinə müsahibəsində ***Vladislav Kanevski*** deyib: – Azərbaycan xalqına Heydər Əliyev kimi dahi şəxsiyyət yetirmiş qədim və gözəl Naxçıvanda olmaq mənim üçün böyük şərəfdir. Ukraynada hamı dahi Heydər Əliyevin xatirəsini əziz tutur və Azərbaycan-Ukrayna dostluğunun təməlinin yaradıcısı olduğunu bilirlər. Məhz bu dostluq sayəsində ölkələrimiz strateji tərəfdaşlıq səviyyəsinə qədər yüksəlmişdir. Mən həmişə Heydər Əliyevin bu sözlərini xatırlayıram ki, müstəqilliyə gedən yol çox çətin və nahamar yoldur. Azərbaycan məhz bu yolu keçərək sonunda öz ərazilərini işğaldan azad etdi. Qeyd edim ki, bu mənim dörd ildən sonra Naxçıvana ikinci səfərimdir. Hazırda ölkələrimiz arasındakı əlaqələrin regional olaraq da inkişafına diqqət yetirməyə çalışırıq. Bununla bağlı artıq müxtəlif səviyyələrdə əlaqələr var. 2020-ci ildə Ukraynanın Lvov vilayəti ilə Naxçıvan Muxtar Respublikası arasında dostluq haqqında əməkdaşlıq sazişi imzalanmışdır. Bu gün mən bu gözəl, qonaqpərvər diyarda regional əsaslı ikitərəfli layihələrlə bağlı müzakirələr aparacağam. İnanıram ki, dörd il bundan əvvəl dahi Heydər Əliyevin anadan olduğu gözəl Naxçıvanla bağlı yaddaşımda qalanlar bu səfərlə daha da zənginləşəcək.

Qeyd edək ki, Naxçıvana ikigünlük səfərə gəlmiş səfir Vladislav Kanevski rəsmi şəxslərlə görüşlər keçirəcək, muxtar respublikanın səhiyyə, mədəniyyət, sənaye müəssisələri ilə də tanış olacaq.

✍ **Səbuhi HƏSƏNOV**

## Azərbaycan elminin inkişafında Tədqiq və Tətəbbö Cəmiyyətinin rolu

AMEA Naxçıvan Bölməsində Əlyazmalar Fondunun təşkilatçılığı ilə “Azərbaycan elminin inkişafında Tədqiq və Tətəbbö Cəmiyyətinin rolu” mövzusunda elmi konfrans keçirilib. Bölmənin sədri, akademik İsmayıl Hacıyev bildirib ki,1923-cü il noyabr ayının 2-də təsis edilmiş Cəmiyyətin 6 illik fəaliyyətindən sonra onun əsasında Azərbaycan Elmi-Tədqiqat İnstitutu, sonralar SSRİ Elmlər Akademiyasının Zaqafqaziya Filialının Azərbaycan şöbəsi, SSRİ Elmlər Akademiyasının Azərbaycan Filialı, nəhayət, 1945-ci ildə Azərbaycan Elmlər Akademiyası yaradılmışdır. Milli Cəmiyyətin elmimizin təşkilatlanmasında və sistemləşdirilməsində olduqca böyük rolu vardır. 1926-cı ildə I Türkoloji Qurultayın keçirilməsi Cəmiyyətin ən təqdirəlayiq tarixi xidmətlərindəndir.

Konfransda AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun icraçı direktoru, filologiya üzrə fəlsəfə doktoru, dosent Elxan Məmmədov, Əlyazmalar Fondunun baş direktoru, filologiya elmləri doktoru Fərman Xəlilov, Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Musa Quliyev məruzə ediblər.

Sonda məruzəçilərin toxunduğu bəzi məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

***AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti***

## Qalib Azərbaycanın Müzəffər Ali Baş Komandanı



*Cənab İlham Əliyevin Azərbaycan Prezidenti seçilməsinin 20-ci ildönümü ilə əlaqədar Naxçıvan Hərbi Prokurorluğunda “Qalib Azərbaycanın Müzəffər Ali Baş Komandanı” adlı elmi-praktiki konfrans keçirilib.*

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirələri bir dəqiqəlik sükutla anılıb.

Tədbirdə çıxış edən Naxçıvanın hərbi prokuroru Aqil Axundov bildirib ki, 20 il bundan əvvəl, 2003-cü ildə Ulu Öndər Heydər Əliyevin layiqli davamçısı cənab İlham Əliyev xalqımızın etimadını qazanaraq Azərbaycan Respublikasının Prezidenti seçilib və bununla da ölkəmizin inkişafında yeni mərhələ başlanıb.

Vurğulanıb ki, Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu dövlət siyasəti bütün sahələrdə Prezident cənab İlham Əliyev tərəfindən dövrün tələblərinə uyğun uğurla davam etdirilir. Xalqımızın çoxəsrlik dövlətçilik tarixinə qızıl hərflərlə yazılmış, hər ili tərəqqi ili olan son 20 ildə Azərbaycan Respublikası uğurlu yol keçib, o cümlədən bütün ərazisində suverenliyini tam bərpa edib.

Çıxışda qazanılan uğurlarda Birinci vitse-prezident Mehriban xanım Əliyevanın da rolundan da bəhs olunub.

Bildirilib ki, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin uzaqgörən siyasəti və müdrik sərkərdəliyi, xalqımızın dəmir iradəsi, hərbçilərimizin qəhrəmanlığı qüdrətli Azərbaycanın ərazi bütövlüyünün bərpasını şərtləndirib və bu böyük tarixi hadisə Ulu Öndərin 100 illiyinə, “Heydər Əliyev İli”nə möhtəşəm töhfə olub.

Tədbir mövzu ilə bağlı çıxışlarla yekunlaşıb.

**Xəbərlər şöbəsi**

# İnkişaf naminə birlik, yaxud
## Qadınların VI Qurultayından təəssüratlar...

***Azərbaycan qadınının uğurlarının təməlində Ümummilli Lider Heydər Əliyevin qadın siyasəti amili dayanır. Ulu Öndərimiz qadınların cəmiyyətdəki rolu ilə bağlı siyasətin səmərəli şəkildə həyata keçirilməsinə, onların dövlət quruculuğunda, elm, mədəniyyət, təhsil, səhiyyə, idman və digər sahələrdə geniş təmsil olunmasına hər zaman müstəsna əhəmiyyət verib.***



Böyük dövlət xadimi həmişə Azərbaycan qadınının mərdliyini, dözümlülüyünü, səmimiyyətini, sədaqətini, vəfa və ismətini ən ali dəyər kimi qiymətləndirib. Bu siyasət qadınların hərtərəfli inkişafı üçün münbit şəraitin formalaşmasına yönəlmiş kompleks tədbirləri, o cümlədən qadınların hüquqi statusunun təkmilləşdirilməsini, onların sosial durumunun yaxşılaşdırılmasını, keyfiyyətli təhsillə təmin olunmasını, cəmiyyətdə ictimai mövqelərinin möhkəmləndirilməsini, siyasi həyatda daha fəal iştirakını və digər prioritet vəzifələri ethiva edir. Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi qadın siyasətinin uğurlu təzahürlərindən biri Azərbaycan qadınlarının 5 ildən bir keçirilən qurultaylarıdır. Bu forumlar qadınların yaradıcı potensialının aktivləşdirilməsi və ictimai problemlərin müzakirəsində onların fəal iştirakının təmin olunmasına xidmət edir. Eyni zamanda keçirilən qurultaylar bir tərəfdən qadınların öz gerçək istək və arzularının reallığa çevrilməsi yolunda meyar rolunu oynayırsa, digər tərəfdən, dövlətə müvafiq kommunikasiya vasitəsi kimi çıxış edir. Təsadüfi deyil ki, dövlətin gender siyasətinin bir sıra təməl sənədləri məhz belə forumlar ərəfəsində və ya bilavasitə ondan sonra qəbul edilib. İlk dəfə 1998-ci ilin 14-15 sentyabrında keçirilən müstəqil Azərbaycan Qadınlarının Qurultayı ölkəmizin ictimai-siyasi tarixində son dərəcə əlamətdar bir hadisəyə çevrilib.

Azərbaycan Qadınlarının I Qurultayında görkəmli şəxsiyyət Heydər Əliyev qurultayın Azərbaycanda qadın hərəkatının inkişafında əhəmiyyətini aşağıdakı sözlərlə ifadə edib: ***“Hesab edirəm ki, bu qurultay XX əsrdə Azərbaycanın tarixində ən böyük hadisələrdən biridir. Azərbaycan qadınları bu qurultayla müstəqil Azərbaycanda gələcəyin qadın hərəkatının əsasını qoyublar, qadınların cəmiyyətdə fəallığının, onların cəmiyyət və dövlətin həyatında iştirakının əsasını qoyublar”.***

Bu gün əsası Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş dövlət qadın siyasəti Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən yeni meyarlarla zənginləşdirilərək yüksək səviyyədə davam etdirilir. Dövlət başçısının rəhbərliyi ilə bölgənin lider dövlətinə çevrilmiş Azərbaycanda gender siyasətinin reallaşdırılması məsələsində də yeniliklər dünyanın diqqətini çəkməkdədir. Qadın hüquqlarının müdafiəsi, onlar üçün yaradılan bütün imkanların genişləndirilməsi dövlət siyasətinin prioritet istiqamətlərindəndir. Bu qayğının ifadəsi olaraq oktyabr ayının 19-da Bakıda Azərbaycan Qadınlarının VI Qurultayı keçirilib. Ölkənin bütün regionlarından olan 600-ə yaxın qadının bir araya gəldiyi qurultay ölkəmizdə qadın hərəkatının əsasını qoymuş Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi, eyni zamanda ilk Qadın Qurultayının 25 ilinə həsr olunub. Türkiyə, Özbəkistan və Tacikistanın dövlət rəsmilərinin də qatıldığı qurultayda deputatlar, dövlət və qeyri-hökumət, eləcə də beynəlxalq təşkilatların və xarici dövlətlərin Azərbaycandakı səfirliklərinin, o cümlədən respublikanın bütün regionlarından nümayəndələr, görkəmli ictimai-siyasi xadimlərlə yanaşı, Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən fəal qadınlarımız da iştirak ediblər. Keçirilən tədbirlə bağlı həmin xanımlardan bir neçəsinin təəssüratlarını sizinlə bölüşürük:

***Gülnar Səfərəliyeva – Naxçıvan Şəhər Məhkəməsinin hakimi:*** – Azərbaycan Qadınlarının VI Qurultayında iştirak etməkdən sonsuz dərəcədə qürurluyam. Ona görə ki, bu qurultay Azərbaycan Respublikasında qadın hərəkatının əsasını qoymuş Ümummilli Liderimiz Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi, eyni zamanda ilk Qadın Qurultayının 25 ili münasibətilə təşkil edilmişdi. Qurultayda Prezident, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin biz qurultay iştirakçılarına təbrik məktubu ünvanlaması dövlət qadın siyasətinin ölkə rəhbərliyinin daim diqqətində olmasının başlıca göstəricisi idi. Bu gün əsası Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş dövlət qadın siyasəti Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən yeni meyarlarla zənginləşdirilərək yüksək səviyyədə davam etdirilir. Dövlət başçısının rəhbərliyi ilə bölgənin lider dövlətinə çevrilmiş Azərbaycanda gender siyasətinin reallaşdırılması məsələsində də yeniliklər dünyanın diqqətini çəkməkdədir. Qadın hüquqlarının müdafiəsi, onlar üçün yaradılan bütün imkanların genişləndirilməsi dövlət siyasətinin prioritet istiqamətlərindəndir.



Azərbaycanın qazandığı misilsiz nailiyyətlərin əldə olunmasında, respublikamızda çoxşaxəli iqtisadiyyatın yaradılmasında, regionların inkişafı proqramının gerçəkləşdirilməsində, demokratik mühitin bərqərar olunmasında, vətəndaş cəmiyyətinin möhkəmləndirilməsində Azərbaycan qadınlarının rolu, xidmətləri qurultayda bir daha vurğulandı, bunun bariz nümunəsi kimi Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təqdirəlayiq fəaliyyəti diqqətə çatdırıldı.

Bir neçə ölkədən, o cümlədən qardaş Türkiyə Respublikasından nümayəndə heyətinin, beynəlxalq təşkilatların nümayəndəliklərinin qurultayda iştirak etməsi qurultayın əhəmiyyətini bariz şəkildə ortaya qoydu. Panel mövzularında qurultayın başlıca məqsədinin ölkəmizdə uğurla həyata keçirilən gender bərabərliyinin gerçəkləşdirilməsində aparılan islahatlar, hüquqi təhlillər, mövcud problemlər, qarşıya qoyulan məqsədlər və vəzifələr geniş şəkildə əhatə edildi.

Yekunda biz qurultay iştirakçıları tərəfindən qətnamə qəbul edildi və 13 bənddən ibarət olan bu qətnamədə qeyd edilən məsələlərin icrasını təmin etmək məqsədilə işçi qrupun yaradılması qərara alındı.

Qurultayda müzakirə edilən mövzulardan çıxarılan nəticələr bunu deməyə əsas verir ki, qadın problemlərinin həlli üçün peşəkar mütəxəssislərin bu prosesə cəlb edilməsi, qadınların hakimiyyətdə və idarəetmədə iştirak səviyyəsinin daha da yüksəldilməsi qadınlarımızın liderlik mövqeyinin möhkəmlənməsinə, onların cəmiyyətin bərabərhüquqlu üzvü kimi öz potensialını tam reallaşdırmasına nail olmaq istiqamətində ardıcıl tədbirlər görülməlidir.

Qurultaydan sonra məndə Azərbaycan qadınlarının fəallığının daha da artacağı, ölkənin ictimai, sosial-iqtisadi, mədəni, mənəvi həyatında onların rolunun əhəmiyyətli dərəcədə yüksələcəyinə böyük inam yarandı.

***Tükəzban Quliyeva – Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin Humanitar siyasət və sosial məsələlər şöbəsinin aparıcı məsləhətçisi:*** – Azərbaycan Qadınlarının VI Qurultayı müxtəlif sahələrdə çalışan lider qadınları daha yaxından tanımaqla yanaşı, onların uğurlarına, həyat yoluna, təcrübələrinə nəzər salmaqda əhəmiyyətli rol oynadı. Qalib ölkəmizin ictimai fəal qadınları ilə bir araya gəlmək, müzakirələr aparmaq, cəmiyyətin, qadınlarımızın problemlərinin həlli istiqamətində olan təklifləri dinləmək məsuliyyətli olmaqla bərabər, qürurverici idi. Azərbaycan qadını hər zaman güclü olub, hər zaman fədakar, əzmli ana, sədaqətli dost, sirdaş, həyat yoldaşı, bacı olub. Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi hər zaman muxtar respublikada qadın hüquqlarının qorunması istiqamətində çoxsaylı tədbirlər həyata keçirib, əməli addımlar atıb. Azərbaycan qadını xoşbəxtdir ki, dövlət idarəçiliyində iştirak edir, siyasi qərarlar qəbul edir, ictimai fəaliyyətləri inkişaf etdirir, biznes layihələri həyata keçirirlər. Bu qədər böyük işlər məsuliyyət və zəhmətlə həyata keçirildiyi üçün qadınlarımız cəmiyyətdə hörmət və nüfuz sahibi kimi tanınırlar. Ünsiyyət, təcrübə və bacarıqları sayəsində zirvələrə yüksəlirlər. Qeyd edim ki, qurultay cəmiyyətdə qadınların siyasət, iqtisadiyyat, elm, təhsil və mədəniyyət sahələrində əməkdaşlıq rolunun müəyyənləşməsi istiqamətindən faydalı idi.

***Gülxanım Orucova – Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin sektor müdiri, Naxçıvan Şəhər Təhsil Şöbəsinin müdiri vəzifəsinin müvəqqəti icraçısı:*** – Naxçıvan Muxtar Respublikasının ictimai, sosial, iqtisadi və mədəni həyatında xidmət göstərən qadınlarla birgə Azərbaycan Qadınlarının VI Qurultayında iştirak etmək mənim üçün çox qürurverici bir hiss idi.

Qurultayda Ulu Öndər Heydər Əliyevin əsas missiyası olan “Böyük Qayıdış”, “Gender məsələləri hüquqi müstəvidə: Mövcud vəziyyət, qarşıda duran məsələlər”, “Sosial-iqtisadi islahatların gender aspektləri. Formal və qeyri-formal məşğulluqda qadın təmsilçiliyi”, “Qadın hüquqlarının həyata keçirilməsində çağırışlar və qlobal tendensiyalar” mövzuları üzrə 4 paneldə iştirak etdik. Bu panellərdə vurğulandı ki, Azərbaycanda qadının statusu son bir neçə yüzillik ərzində çox böyük dəyişikliklərə məruz qalmışdır. Buna baxmayaraq, Azərbaycanda qadınlar ölkə tarixinin bütün dövrlərində xalqın taleyüklü məsələlərinin həll edilməsinə öz töhfələrini veriblər.

Azərbaycan Qadınlarının VI Qurultayında informasiya-kommunikasiya və STEAM sahəsində sürətli inkişafı nəzərə alaraq gənc qızlar və qadınların bu sektorda məlumatlılıq səviyyəsinin yüksəldilməsi, bu sahəyə peşəkar marağın təşviq edilməsi, təhsilin bütün pillələrində fənn proqramlarına qadın hüquqları, gender bərabərliyi üzrə mövzuların daxil edilməsi üçün təşəbbüs irəli sürülmüşdür. Əlbəttə ki, bir cəmiyyəti xilas etmək üçün qadınların təhsilli olması mütləqdir. VI Qurultayın Qətnaməsinə təhsil sahəsində bəndlərin salınması və qəbul edilməsi məni bir təhsil işçisi kimi çox sevindirir. Muxtar respublikamızda erkən nikah hallarının minimuma endirilməsi və qızlarımızın təhsilə cəlbi gələcək nəsillərin daha sağlam, savadlı böyüməsinə geniş imkanlar açır. Bütün dünyada öz fədakarlığı, əzmi və iradəsi ilə hörmət qazanan cəsur qadınlarımızı təbrik edirəm.

*...1998-ci ildən başlayaraq keçirilən qurultaylar bir tərəfdən qadınlarımızın ictimai-siyasi fəallığının yeni mərhələyə yüksəlməsinə yardım edirsə, digər tərəfdən, dövlətin özünün qadın siyasətini müəyyənləşdirməsinə, gender strategiyasının inkişaf etdirilməsinə və daha müvəffəqiyyətlə həyata keçirilməsinə şərait yaradır. Bu sahədə hüquqi bazanın təkmilləşdirilməsi, bərabər hüquqların təmin edilməsi üçün Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti hörmətli Mehriban xanım Əliyeva öz geniş fəaliyyəti ilə həm ölkədə, həm də beynəlxalq aləmdə Azərbaycan qadınının nüfuzunu daha da yüksəklərə qaldırır. Onun simasında dünya dövlətlərinə dərin bilik və intellekt sahibi olan ziyalı, peşəkar siyasətçi, humanist Azərbaycan qadını obrazı təqdim olunur.*

**Gülcəmal TAHİROVA**

## AZPROMO Naxçıvanda ixracatçılar üçün təlimlər keçirib



*Naxçıvanda ixrac fəaliyyəti ilə məşğul olan kadrların bilik və bacarıqlarının artırılması, həmçinin ixrac əməliyyatlarının həyata keçirilməsinə hazır olmaları istiqamətində 2 günlük təlimlər keçirilib.*

Təlimin digər məqsədi yerli şirkətlərin məhsullarının xarici bazarlara çıxarılması üçün dövlət tərəfindən həyata keçirilən dəstək tədbirləri barədə məlumatların verilməsidir.

Qeyd edək ki, dekabr ayında da İqtisadiyyat Nazirliyinin dəstəyi ilə AZPROMO-nun təşkilatçılığı altında Türkiyəyə ixrac missiyasının həyata keçirilməsi nəzərdə tutulur.

Hazırda “Made in Azerbaijan” brendi altında Naxçıvan məhsullarının xarici bazarlarda keçirilən sərgilərdə, ixrac missiyalarında iştirakı üçün hərtərəfli şərait yaradılıb. Bunlardan, əsasən, qənnadı məhsulları istehsal edən şirkətlər, eləcə də konservləşdirilmiş məhsullar istehsal edən şirkətlərin artıq AZPROMO və İqtisadiyyat Nazirliyi tərəfindən xarici bazarlarda iştirakının təmin edilməsini göstərmək olar.

**Xəbərlər şöbəsi**

## Hüseyn Cavid anadan olmasının 141-ci ildönümündə yad edilib



Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə keçirilən tədbirin iştirakçıları əvvəlcə Naxçıvan şəhərində Hüseyn Cavidin xatirə kompleksini ziyarət edib, ədibin məzarı önünə gül dəstələri düzüblər.

Cəlil Məmmədquluzadə adına Naxçıvan Muxtar Respublika Ədəbiyyat muzeyində keçirilən tədbiri giriş sözü ilə açan Mədəniyyət Nazirliyi Aparatının rəhbəri Piri Nağıyev Hüseyn Cavidin Azərbaycan ədəbiyyatının, mədəniyyətinin, teatrının inkişafındakı misilsiz xidmətlərindən danışıb. Hüseyn Cavidin xatirəsinin əbədiləşdirilməsi, əsərlərinin nəşri, tədqiqi, təbliği, dünyada tanıdılması istiqamətində işlərin bu gün də uğurla aparıldığını diqqətə çatdıran aparat rəhbəri vurğulayıb ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamları ilə ədibin 120,135,140 illik yubileyləri dövlət səviyyəsində qeyd olunub. Dramaturqun doğulduğu Naxçıvan torpağında xatirəsi hər zaman əziz tutulur, əsərləri Naxçıvan teatrında mütəmadi olaraq səhnələşdirilir, təbliği daim diqqətdə saxlanılır.

Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Asim Əliyev Hüseyn Cavidin həyat və yaradıcılığından bəhs edib, bədii yaradıcılığına şeirlə başlayan şairin sonralar qələmə aldığı əsərlərin ədəbiyyatımızın qızıl fondunu təşkil etdiyini vurğulayıb.

Tədbir çıxışlarla davam edib, Hüseyn Cavidin əsərlərindən parçalar bədii qiraət olunub.

Sonda Hüseyn Cavid guşəsinə baxış olub.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***




## Xüsusi peşəkarlıq və böyük fədakarlıqla həsrətinə son qoyulan Qubadlının azad edilməsindən 3 il ötür...

*30 ilə yaxın düşmən tapdağında inləyən yurd yerlərimizdən biri idi Qubadlı. 1993-cü il avqustun 31-də ağır döyüşlərin sonunda 1 şəhər və 93 kənd daxil olmaqla bu rayon mənfur düşmən tərəfindən işğal edildi. 30 mindən artıq dinc sakin yurdundan, yuvasından, el-obasından didərgin düşdü. 27 il düşmən tapdağına məruz qalan rayonun təbii sərvətləri talandı, istismar olundu, tikililəri, kəndləri dağıdıldı. Ancaq faşist xislətli, mənfur erməni daşnakları tərəfindən işğal olunan Qubadlının yurd həsrəti ilə alışıb-yanan sakinləri hər zaman haqq-ədalətin zəfər çalacağı, erməni tapdağında olan ata-baba yurdlarının geri qaytarılacağı ümidi ilə yaşadılar. Və nəhayət, 30 ilə yaxın Vətən həsrəti, yurd nisgili 2020-ci il oktyabrın 25-də sona çatdı.*



Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu Qubadlıda yenidən üçrəngli bayrağımızı dalğalandırdı. Qubadlının azadlığı uğrunda canından keçən şəhidlərimizin, bu torpaqlarda döyüşən igidlərimizin və qazilərimizin sayəsində biz Qubadlıya düz 27 ildən sonra başıuca, məğrur qayıda bildik. Ancaq Qubadlıya qayıtmaq o



qədər də asan olmadı. Rayonun işğaldan azad edilməsi əməliyyatı bir neçə gün çəkdi. Çünki mənfur düşmən burada güclü istehkam qurmuşdu. 2021-ci ilin dekabr ayında Azərbaycan Prezidenti cənab İlham Əliyev işğaldan azad edilmiş bu rayona səfəri zamanı Qubadlı əməliyyatının təfərrüatlarını açıqlayaraq deyib: ***"Düşmən şəhərin girəcəyində hərbi baza yaratmışdı. Ona görə Qubadlı şəhərini azad etmək o qədər də asan məsələ deyildi. Gərək, ilk növbədə, ermənilərin istehkamları məhv ediləydi, onlardan biri Xanlıq qəsəbəsində yerləşirdi. Orada güclü istehkamlar qurmuşdular və Xanlıq qəsəbəsini onlar özləri üçün bir baza kimi yaratmışdılar. Xaricdə yaşayan ermənilər orada qəsəbə salmışdılar. İndi bu qəsəbədə Azərbaycan əsgərləri yerləşib. Xaricdə yaşayan ermənilərin pulu ilə xaricdən ermənilər gətirilib və qanunsuz şəkildə Qubadlıda yerləşdirilib. Bu, özlüyündə hərbi cinayətdir. Ermənistan dövləti bu cinayətə və bütün digər cinayətlərə görə cavab verəcək".***

Ərənlər yurdu, igidlər diyarı Qubadlı bu gün də öz qəhrəmanları ilə anılır. Qaçaq Nəbi, qoçaq Həcər hünərlərini xalqımızın qəhrəmanlıq tarixinə Qubadlının qoynunda yazıblar. Bu qəhrəmanlıq ənənələri nəsildən-nəslə keçərək yaşayıb. Birinci Qarabağ müharibəsində iz qoymuş pəhləvan komandir Əliyar Əliyev, Kərəm Mirzəyev, İkinci Qarabağ müharibəsində doğma yurdu Qubadlı uğrunda şəhid olan Milli Qəhrəman Şükür Həmidov, Əliyar Əliyevin ən yaxın silahdaşlarından olan general Mais Bərxudarov və onlarla igid yeni tariximizin milli qəhrəmanlarıdır. Qubadlının belə cəsur, igid övladları da vətənimizin şanlı tarixinə yeni səhifələr yazıblar.

Qubadlı qədim insan məskənlərindəndir. Bu ərazi arxeoloji cəhətdən kifayət qədər öyrənilməsə də, buradakı təbii mağaralarda, sığınacaqlarda insan əlinin, fəaliyyətinin izləri qalmaqdadır. Keçilməz qayalar, sərt sıldırımlar üzərində ucaldılan müdafiə istehkamları və keşikçi qalalarının qalıqları müasir dövrə qədər gəlib çatıb. Bu diyarın adının Sasanilər dövrünə dayandığının şahidi oluruq. Mənbələrdə qeyd edilir ki, aparılan qazıntılar zamanı 488-531-ci illərdə hakimiyyətdə olmuş Sasani şahı I Qubadın adına zərb edilən gümüş sikkələr tapılıb. Güman olunur ki, bu yurd yeri məhz I Qubadın adı ilə bağlı Qubadlı adlanıb. Lakin digər mənbələrdə bu ərazilərdə daha qədimdən yaşayışın olduğu müəyyənləşdirilir. Qədim pirlər, ibadətgahlar bu yerlərdə hələ İslamdan çox-çox qabaq daimi məskunlaşma yerlərinin mövcudluğunu göstərir. Bunu həm də tarixi bilinməyən qədim qəbiristanlıqlar, ayrı-ayrı yaşayış məskənləri yaxınlığından tapılmış maddi məişət nümunələri, əmək alətləri də təsdiq edir. Qubadlı şəhəri ərazisində aşkar olunmuş Xırman yeri, Əliquluuşağı kəndində aşkar olunmuş Qalaça, Koroğlu qalası, Muradxanlı kəndi ərazisində Maltəpə abidələri mütəxəssislər tərəfindən Son Tunc, İlk Dəmir dövrlərinə aid edilir. Saray, Poladlı, Xocamsaxlı, Çardaxlı kəndləri ərazisində keçilməz sıldırım qayalar üzərində son dövrə qədər qalan istehkam qalaçalar ayrı-ayrılıqda VII-IX əsrlərə aid edilsə də, əslində, bu istehkam qalaçalar bizim eradan əvvəl I yüzillikdə Atropatena və Albaniya dövlətlərini ayıran sərhəd boyunca vahid keşikçi-gözətçi məntəqələri sisteminin tərkib hissəsidir. Başarat kəndi yaxınlığında alban məbədi, Boyunəkər, Dəmirçilər və Gürcülük kəndlərindəki türbələr, Dondarlı məscidi, qəbirüstü qoç heykəllər, Məmər kənd məscidi yurdun qədimliyindən danışır.

1933-cü ildə yaradılan Qubadlı 2 dəfə – 1937 və 1963-cü illərdə Zəngilanla birləşdirilib. Lakin çox keçmədən yenidən ayrıca rayon statusu alıb, 1964-cü ildən müstəqil rayon kimi fəaliyyətə başlayıb. Əhalisi işğaladək dövrdə 31 min nəfər olan Qubadlı rayonu qərbdən Ermənistanla, şimaldan Laçın, şərqdən Cəbrayıl və Xocavənd, cənubdan isə Zəngilan rayonları ilə həmsərhəddir. Kəndlərin əksər hissəsi Həkəri və Bərgüşad çayları ətrafında yerləşir. Rayon mərkəzindən keçən, adı dillər əzbəri olan bu çaylar indi Qubadlının göz yaşı yox, bu diyarın qoynunda sevinclə çağlayan təbiət gözəlidir. Erməni xislətindən daşı daş üstündə qalmayan, viran olan, talanan təbiət incisinin təkcə havasını, suyunu, dağlarını, çaylarını apara bilməyən mənfur düşmənin caynağından artıq üç ildir ki, qurtulub Qubadlı... 44 günlük Vətən müharibəsi nəticəsində işğal olunan Qubadlıda bu gün Azərbaycanın üçrəngli bayrağı əzəmətlə dalğalanır. Hazırda Prezident cənab İlham Əliyevin təşəbbüsü ilə işğaldan azad edilmiş bütün ərazilərimiz kimi Qubadlıda da quruculuq, abadlıq işləri aparılır, yağı düşmənin talayıb, viran qoyduğu ata-baba yurdumuz bu gün güllük-gülüstana çevrilir, çiçəklənir, gözəlləşir, əvvəlkindən də möhtəşəm görkəmi geri qaytarılır. 25 oktyabr 2021-ci ildə Prezident cənab İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Xudafərin-Qubadlı-Laçın avtomobil yolundan Qubadlı şəhər mərkəzinə gedən Xanlıq-Qubadlı yolunun təməlqoyma mərasimində, "Qubadlı" yarımstansiyasının açılışında, Qubadlı rayonunda Dövlət Sərhəd Xidmətinin yeni hərbi hissə kompleksinin açılışında iştirak edib, Qubadlı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüblər. Görüş zamanı Prezident cənab İlham Əliyev deyib: ***"Mən bu gün Qubadlı rayon sakinlərini Qubadlıya dəvət etmişəm. Qubadlıya xoş gəlmisiniz. Bu gün Qubadlı rayonunun tarixində əlamətdar və tarixi bir gündür. Düz bir il bundan əvvəl müzəffər Azərbaycan Ordusu Qubadlını erməni işğalından azad etmişdir və bundan sonra 25 oktyabr bizim tariximizdə əbədi Zəfər Günü kimi qeyd ediləcək. Bu münasibətlə sizi və bütün qubadlılıları, bütün Azərbaycan xalqını ürəkdən təbrik etmək istəyirəm".***

19 oktyabr 2022-ci ildə isə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Qubadlı rayonu ərazisində yaradılacaq Zabuxçay və Bərgüşadçay su anbarlarının layihələri və Qubadlı şəhərinin Baş planı ilə tanış olub. Prezident cənab İlham Əliyev və birinci xanım Mehriban Əliyeva həmin gün İşğal və Zəfər muzeyləri kompleksinin təməlini qoyublar.

Prezident cənab İlham Əliyev cari il may ayının 4-də Qubadlı şəhərində ilk yaşayış məhəlləsinin təməlinin qoyulması, həmin gün Qubadlı rayonunun Xanlıq, Mahruzlu, Zilanlı kəndlərinin təməlqoyma mərasimlərində iştirak edib.

*Bu gün Müzəffər Ali Baş Komandanın işğaldan azad edilən ərazilərə hər bir səfəri yeni sosial obyektlərin açılışı və təməlqoyma mərasimlərinin keçirilməsi ilə yadda qalır. Qarabağımızın yenidən qurulması üçün atılan addımlar isə hər birimizi qəlbən sevindirir və qürurlandırır.*

✍ **Gülcamal TAHİROVA**

*Əfsanəyə dönən ömürlər*

## Poladürəkli ölməz qəhrəman



Xalqımızın mənəvi birlik və bərabərliyi, qəhrəman oğullarımızın müqəddəs amal uğrunda doğma torpağa sədaqəti 44 günlük Vətən müharibəsində də özünü bariz şəkildə göstərdi. İgidlik və mübarizliyi xalqından miras alan oğullarımız Vətənimizin milli ləyaqətini öz canlarından, qanlarından üstün tutdular, əsl hünər, qorxmazlıq və cəsarət nümayiş etdirdilər, şəhidlik zirvəsinə ucaldılar. Bəli, bu mübarizədə şəhidlərimiz də oldu, qazilərimiz də... Amma belə bir deyim var ki, torpaq yalnız qanla qarışanda Vətən olur, Vətən qoxur!

Belə igid oğullarımız sayəsində bu gün artıq torpaqlarımızda yağı düşmənlərimizin yox, onlara döyüş meydanında dərs verən Azərbaycan əsgərinin isti nəfəsi, xoş sədaları var. Bu yazımızda onlardan biri, şəhid general Polad Həşimovun taborunda xidmət edən, ərazi bütövlüyümüzün təmin edilməsi yolunda canla-başla vuruşan və düşmənlə ağır döyüşlərdə şəhid olan baş leytenant Sahil Məmmədov haqqında danışacağıq. Sahil Məmmədov 1995-ci ildə Naxçıvan şəhərinin Qaraçuq kəndində, sadə, zəhmətkeş bir ailədə anadan olmuşdu. O, 2001-2005-ci illərdə Qaraçuq, 2005-2009-cu illərdə Heydər Əliyev adına tam orta məktəblərdə təhsil almış, 2009-cu ildə Heydər Əliyev adına Hərbi Liseyə daxil olmuşdu. Sahilin Vətənə sevgisi onun həyat yolunu çoxdan cızmışdı. Yurd eşqi, vətənpərvərlik hissi ilə ordu sıralarına getmişdi... Sahilin həyat yoldaşı Turanə xanım öz kədərini, qəmini nə qədər gizlətmək istəsə də, onsuz keçən illərin ağrı-acısı sözlərindən hiss olunur. Hər sözünün əvvəlində "Vətən sağ olsun!" – deyir və bizə Azərbaycan qadınının necə güclü varlıq olduğunu göstərir: – Onun gözəl rəssamlıq qabiliyyəti, xarici dil bacarığı olsa da, Vətənin azadlığını, müstəqilliyini seçdi. Yurdumuzun ərazi bütövlüyünü öz canından, ailəsindən üstün tutdu. Turanə xanım deyir ki, şəhidimizdən geriyə qalan Şəms adlı qızlarının hazırda 5 yaşı var. Bir çox Vətən övladı kimi bizə əmanət olan balaca balamızın da tək arzusu işğaldan azad olunmuş torpaqlarımıza getmək, o yerləri görməkdir.

Turanə xanım Sahil Məmmədovun döyüş yolu barədə də danışır bizə: – Ordu sıralarında zabit kimi şəhid generalımızın taborunda xidmət edirdi. Polad Həşimovu tanıyan bütün əsgər və zabitlər kimi Sahil də komandirini çox sevirdi. 2020-ci il 14 iyul tarixində general-mayor Polad Həşimovun və onunla bərabər bir neçə əsgər və zabitimizin şəhidlik xəbəri gələn zaman çox təsirlənmişdi. Hər zaman şəhid generalımızla bağlı xatirələrini bölüşəndə deyirdi ki, Polad Həşimov tabeliyində olan bütün əsgərlərə, hərbçilərə söyləyirmiş ki, nə vaxt düşmən torpaqlarımıza ayaq basarsa, geriyə baxmadan hər şeyi buraxın, silahınızı götürün və şücaətlə vuruşun. Sahil sanki şəhidlik əmrini şəhid komandirindən almışdı. Bu müqəddəs əmrə ömrünün sonuna qədər sadiq qaldı.

Turanə xanım deyir ki, Vətən müharibəsi başladığı bir neçə gün ərzində igid eloğullarımızın qəhrəmanlığı bütün Azərbaycan xalqında böyük qələbəyə ümid yaratmışdı. Hər dəfə Sahildən bu barədə nə isə soruşanda cavab verməzdi. Hərbi sirr hərbçidə də qalmalıdır, – deyirdi. Öz peşəsi ondan nə qədər ciddiyyət tələb etsə də, o, ailədə həmişə mülayim rəftarı, gülərüzlüyü ilə yadımızda qalıb. Allah bütün şəhidlərimizə rəhmət eləsin, qazilərimizə sağlamlıq nəsib etsin. Mən hər zaman fəxr etmişəm Sahillə. Yalnız onunla yox, elə bütün şəhid qardaşlarımla qürur duymuşam. Bu gün onların ruhu şaddır. Çünki onların arzuları yerinə yetib – Vətənimiz azad olub.

Sahil Məmmədov mənfur düşmənin açdığı snayper gülləsi nəticəsində ağır yaralanıb, şəhadətə qovuşub. 68 gün neytral zonada qalıb, yalnız dekabrın əvvəllərində nəşi ordumuza təhvil verilib və doğulduğu kənddə dəfn olunub.

İgid şəhidimizin Vətənimiz qarşısındakı şücaəti əvəzsiz qalmayıb. O, 26 İyun – Silahlı Qüvvələr Günündə "Azərbaycan Ordusunun 100 illiyi münasibətilə 1918-2018" yubiley medalına layiq görülüb. Ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "İgidliyə görə", "Kəlbəcərin azad olunmasına görə" medalları və 3-cü dərəcəli "Rəşadət ordeni" ilə təltif olunub.

*Biz də Vətən uğrunda canından keçmiş şəhidlərimizin ruhu qarşısında baş əyir, Allahdan onlara rəhmət diləyirik.*

✍ **Bülbül QULİYEVA**

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Ceyhun Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 623